# Roman oxumaq

*esse*



**Herman Hesse**



Bu yaxınlarda gənc, müəyyən qədər tanınmış bir müəllifin məndə maraq doğuran, əslində adi insanlardan və hadisələrdən bəhs edən romanını oxuyurdum. Böyük şəhərlərdə yaşayan, həyatı maraqsız, cansıxıcı keçməsin deyə onu müxtəlif təəssüratlarla, əyləncələrlə emosiyalarla mənalandıran insanlar haqqındadır. Bu cür romanlar çoxdur. Bəzən mən - kənddə, tək yaşayan bir insan maariflənmək üçün belə kitablardan birini götürüb oxuyuram ki, öz müasirlərimin həyatıyla tanış olum. Mənə elə gəlir onlardan çox aralı düşmüşəm. Onlar mənə tamamilə yad adamlardır. Və onların maraqları, fikirləri mənimçün möcüzə, ekzotika və əlçatmazdır. Bir sözlə, mən böyük şəhərlərin əyləncə həvəskarı olan sakinləri ilə maraqlanıram. Bu insanlara marağım təkcə bir avropalının fillərə, timsahlara olan marağıyla eyni deyil, bu həm də qəribə bir maraqdı: axı mənə də agah idi ki, böyük şəhərlər, hətta mənim kimi kəndin bir küncündə sakit ömür sürən bir adamın da bəzən həyatına və əhval-ruhiyyəsinə hiss olunacaq qədər çox təsir edə bilir. Çünki məhz bu qələbəlikdə, bu cür qarmaqarışıq bir atmosferdə, instinktlə hərəkət etdiyindən müəmmalı həyatı, müharibəni, valyuta məzənnəsindəki dəyişikliklər kimi məsələləri insanlar deyil, dəb, birja “küçə” qaydalar həll edir. Böyük şəhərlərin sakinləri öz ətrafələrində, baş verən bütün hadisələri “həyat” adlandırırlar. Bura onlar bircə siyasəti aid etmirlər. Çünki bu sözlə onlar həmçinin biznes və cəmiyyət anlayışını, cəmiyyət dedikdəsə əylənməyi nəzərdə tuturlar. Böyük şəhər mənimçün yaşamadığım yad bir həyatdır. Lakin o müəyyən mənada mənimçün də vacib olan şeyləri müəyyənləşdirir. Bundan əlavə, oxucularımın böyük şəhərlərin sakinləri olduğundan da agaham. Lakin mən heç də tək onlar üçün yazmıram. Axı onları uzaqdan, yalnız kənardan görünən həyatlarına az bələdəm deyə az tanıyıram. Demək olar ki, barələrində heç nə bilmirəm.

Fəqət mən bununla nə böyük şəhərləri, nə də onlar haqqında yazılan romanları mühakimə etmək fikrində olmasam da, əhəmiyyətli və nümunəvi insanlara həsr edilmiş əsərləri oxumaq daha xoş və ürəyimcə olardı. Özüm də ədəbiyyatçıyam. Bilirəm ki, yazmaq üçün mövzu seçən yazıçılar yazıçı deyil. Onların əsərləri nə oxunmağa layiqdir, nə də müzakirə etməyə. Məsələn, mümkündür ki, əsər çox mükəmməl bir tarixi hadisəni əhatə etsə, dəyərsiz olar, çox adi, primitiv bir hadisədən, məsələn, itirilmiş iynədən, yanmış xörəkdən bəhs edən bir əsər isə əsl ədəbiyyat nümunəsi ola bilər.

Odur ki, mən o müəllifin əsərini mövzusuna xüsusi bir rəğbət və məhəbbətlə oxumadım. Əsərə oxucu yox, müəllif özü inanmalıdır. Oxucu yalnızca ədəbiyyata hörmətlə yanaşmalı, əsərə fikir vermədən yazıçının onu necə yazdığını mühakimə etməlidir. Mən buna hər zaman hazıram. Və hətta peşəkarlığın mükəmməlliyini məzmun və mahiyyətdəki ideya və emosiyalarından get-gedə daha çox üstün tuturam. Çünki yaşadığım bir neçə onillik və yazıçı zəhmətimin nəticəsində mən əmin oldum ki, ideya və hissləri imitasiya etmək mümkün olsa da, peşəkar əlindən çıxmı işi yamsılamaq mümkün deyil. Beləliklə, mən romanı anlayaraq və həmkarıma hörmətlə oxudum. Elə yerləri var idi başa düşmədim və bəzən məndə gülüş doğurdu. Əsərin qəhrəmanı peşəkar yaradıcılıqla məşğul olan biri yox, öz dostlarıyla əylənən gənc ədəbiyyatçıdır. Bundan başqa, o vaxtını gözü onun pullarında olan qadınlara sərf edirdi. Böyük şəhərə, cəmiyyətə, qəzet sensasiyalarına bu müəllif nifrət edir. Çünki hiss edir ki, müharibəni məhz onlar törədir. Lakin onun qəhrəmanının bu dünyadan ayrılmağa gücü çatmır və o bundan bir əyləncəni başqa əyləncəyə, bir sevgini başqa sevgiylə əvəz etməyə çalışır.

Əsərin məzmunu belədir. O özü məcbur edir ki, bir çox şeylərlə yanaşı restoranları, qatarları, mehmanxanaları, naharçun ödənilmiş məbləğləri və buna bənzər digər təsvirlər əsərdə öz yerini tapsın. Və ola bilər ki, bunlar da özözlüyündə hardasa maraqlıdır. Mən isə əsərdə məni çaşdıran, təəccübləndirən bir yerə çatdım. Deməli, qəhrəman Berlinə gəlir, mehmanxanada məhz on bir nömrəli otaqda qalır. Bunu (müəllifi həmkarım olduğundan hər cümləsini çox diqqət və maraqla) oxuyaraq düşünürdüm: “Görəsən, otağın nömrəsini belə dəqiq qeyd etmək onun nəyinə lazımdır?” Ardını oxuyuram. Əminəm ki, on bir rəqəminin mütləq nəsə qeyri-adi, maraqlı, heyrətləndirici bir mənası var. İki-üç səhifədən sonra qəhrəman mehmanaxanaya qayıdır və birdən məlum olur ki, o, on iki nömrəli otaqda yaşayır! Arxa səhifəyə qayıtdım. Yox, mən səhf etməmişəm. Əvvəldə on bir, indi isə on iki yazılıb. Və burada heç bir zarafat, oyun, maraq, sirr yoxdur. Sadəcə müəllifin diqqətlizliyi, məsuliyyətsizliyidir. Müəllif birinci dəfə “on bir” yazıb, ikinci dəfə “on iki”. Çox güman ki, o, nə yazdığını, nə də rəqəmləri təkrar oxumayıb. Və yaxud oxuyubsa, rəqəmləri elə yazdığı kimi də çox etinasız və diqqətsiz oxuyub. Ədəbiyyatda insanları məktəbdəki kimi bütün səhvlərə və yanlışlara görə sorğusual edən yoxdur. Axı həyat o qədər qısadır ki... Böyük şəhərsə böyük gərginlik tələb etdiyindən gənc müəllifin işləməyə vaxtı qalmır. Bax, hər şey bu cürdür. Əvvəllər olduğu kimi elə indi də məsuliyyətsiz qəzet sensasiyalarına, laqeydliyinə, etinasızlığına görə müəllifə “alqış düşür”. Bu cür laqeydlik böyük şəhərlər üçün çox xarakterikdir. Rəqəmlərlə bağlı uyğunsuzluğa rast gələndən sonra mənim müəllifə etibarımı azaldı. Və mən birdən-birə hər şeyə şübhəylə yanaşaraq, mətni irad axtara-axtara oxumağa başladım. “On iki” rəqəminə bənzər səliqəsizliklərlə daha bir neçə yerdə rast gəldim. Kitab öz bədii çəkisini, dəyərini, həqiqiliyini o axmaq “on iki” rəqəminə görə itirdi. Mənə elə gəlir ki, bu kitab meqapolis yazıçısı tərəfindən böyük şəhərin sakinləri üçün bir gündən, bir andan ötrü nəzərdə tutularaq yazılıb. Sanki müəllif belə məsələlərə qeyri-ciddi yanaşır. Və buna görə də böyük şəhərin ağrılı və rəhimsiz olması barəsindəki narahatçılıqları da ciddi deyil.

Bu haqda fikirləşəndə yadıma düşdü ki, uzun illər əvvəl oxuduğum bir kitabda da bu cür qəribə və dolaşıq hadisəyə rast gəlmişdim. Bir gənc, lakin məşhur müəllif oxuyub fikrimi bildirməkdən ötrü mənə öz romanı göndərmişdi. Müxtəlif hadisələrlə yanaşı romanda isti və quraqlıq yay haqqında danışılırdı: torpaq “yorulmuş”, bəhərdən düşmüş, kəndlilər çarəsiz qalmış, məhsul kökünə kimi yanmış, otlaqlar isə saralıb-solmuşdu. Lakin bir neçə səhifədən sonra əsərin qəhrəmanı həmin yay fəslində, həmin torpaqda gözəl, ətirli güllərdən zövq ala-ala gəzişdi. Mən müəllifə bu barədə yazdım ki, bu unutqanlıq və səliqəsizlik kitabı oxumağıma mane oldu. O isə bu barədə danışmaq belə istəmədi. Həyat qısadır və o, artıq digər vacib işlərlə məşğul idi. Müəllif bircə bunu yazdı ki, mən çox vasvası adamam və bədii əsərdə bu cür xırdalıqlar yox, tamam başqa şeylər vacibdir. Fikir bildirdiyimə peşman oldum və bir daha heç kimə bu cür məktublar yazmadım. Heç elə şey ola bilərmi ki, bədii ədəbiyyatda, məhz bədii ədəbiyyatda həqiqət, dəqiqlik, xırdalıq vacib olmaya?! Nə yaxşı indi də belə xırdalıqları dəqiqliklə, çox gözəl, incə təqdim edən gənc yazıçılarımız var.

Qoy mən dəqiqliyimin vasvası, deyingən və köhnəpərəst, geridəqalmış donkixotluq sayılsın. Məgər biz bilmirik ki, kitabların böyük əksəri tez-bazar, heç bir məsuliyyət hissi olmadan yazılıb? Və bütün bu çap olunmuş kitablar bir gün kağız yığını olacaq? Bəs onda bu cür xırdaçılıqlara ciddi yanaşmağın mənası nədir? Ömrü bir günlük olan, “maraqlı” kitab yazan müəlliflərin mətnlərini niyə əbədi əsərlər kimi oxuyaraq onlara haqsızlıq edək ki?

Heç nəyə baxmayaraq mən öz fikrimdən dönə bilmərəm. Böyük işlərə ciddi, kiçik işlərə qeyri-ciddi yanaşmaq qaçılmaz məğlubiyyətin başlanğıcıdır. Beləleri mənəviyyatı üstün tuturlar, lakin ayrı-ayrı adamları, onlara qulluq edənləri incidirlər. Bu cür yazıçılar vətəni, kilsəni və ya partiyanın fəaliyyətini təqdir edirlər, lakin gündəlik işlərini insaflı yerinə yetirmirlər. Bax belə şeylər rüşvətxorluğun yaranmasına gətirib çıxarır. Bundan xilas olmağın bir yolu var: Əvvəla özündə, sonra isə başqalarında uca və müqəddəs nəsnələrdən - xarakterdən, dünyagörüşündən, vətənpərvərlik hisslərindən uzaqlaşıb xırda və çox xırda, hətta müvəqqəti işlərə də ciddi yanaşmalıyıq. Kimsə əgər təmir üçün ustaya velosiped veribsə, ondan bəşəriyyətə qarşı sevgi, Almaniyanın böyüklüyünə əminlik ummur. Sadəcə işində məsuliyyətli olmağı istəyir. Və haqlı olaraq işinə görə də ona dəyər verir. Axı bəs onda niyə “bədii yaradıcılıq”la vicdan və insanfla məşğul olmamalıdırlar? Və niyə “kiçik” peşəkar səhvləri ideoloji məsələlərə görə bağışlamalıyıq? Yox, gəlin medalın əks tərəfinə də baxaq. Axı əsaslı işlər, böyük ideologiyalar medal kimidir. Onun o biri üzünə çevirəndə, bizi yalnız karton olması ilə heyrətləndirir.

**Rus dilindən tərcümə edən:**
**Xanım AYDIN**